0090500021

**Azərbaycan Respublikası**
**ATÇILIQ FEDERASİYASI**

Binə qəsəbəsi, Mərdəkan şossesi
AZ 1045, Binə Atçılıq Mərkəzi, Bakı, Azərbaycan
Tel: (+99 412) 565 31 51
Faks: (+99 412) 565 31 52
e-mail: info@araf.az

**EQUESTRIAN FEDERATION of Azerbaijan Republic**

Bina settlement, Mardakan highway,
AZ 1045, Bina Equestrian Center, Baku, Azerbaijan
Tel: (+99 412) 565 31 51
Fax: (+99 412) 565 31 52
e-mail: info@araf.az

www.araf.az

Reçu CLT / CIH / ITH
Le 19 MARS 2013
N° 0147

№ 24

"14" mart 2013 il

**Azərbaycanın "Çövkən" milli atüstü oyununun YUNESKO-nun Təxirəsalınmaz Qorunmağa Ehtiyac Duyulan Qeyri-Maddi Mədəni İrs Siyahısına təqdim edilməsinə dair**

**Azərbaycan Atçılıq Federasiyası nümayəndələrinin**

**YUNESKO-nun baş direktoru xanım İrina Bokovaya**

## MÜRACİƏTİ

**Hörmətli Baş direktor,**

Məlumdur ki, Azərbaycan ən qədim zamanlardan atçılıq mədəniyyətinin təşəkkül tapdığı ölkələrdəndir. Bu yerlərin füsunkar təbiəti, xalqın şöhrət rəmzi kimi qəbul etdiyi ata olan sevgisi, bütün dünyada tanınan Qarabağ və Dilbaz at cinslərinin yetişdirilməsinə, bu atlar üzərində milli oyunların formalaşmasına və geniş yayılmasına zəmin yaratmışdır.

Tarixən Azərbaycanın Qarabağ bölgəsi əsas mərkəz olmaqla, qərb və şimali-qərb bölgələrində atüstü milli oyunlar, xüsusilə "Çövkən" oyunu geniş yayılmışdır. Orta əsrlərdən zəmanəmizə qədər bütün dövrlərdə bu oyun ən qədim dövrlərdə olduğu bir şəkildə qorunub saxlanmış və nəsildən-nəsilə ötürülmüşdür. Azərbaycanın yerli atları, ilk növbədə Qarabağ atı üzərində oynanılan bu xalq oyunlarından "Çövkən" aparıcı yer tutmaqla, "Papaq oyunu", "Yaylıq", "Atüstü güləş", "Baharbənd" və digərləri geniş yayılmış, atçılıq mədəniyyəti ilə paralel inkişaf etmişdir. Tarixən el şənlikləri, xüsusilə "Novruz" bayramı atüstü oyunlarsız, xüsusilə, "Çövkən" - siz keçirilməzdi. Müxtəlif zamanlarda "Çövkən" üzrə məktəblər və komandalar mövcud olmuşdur.

Lakin tarixin sonrakı mərhələlərində müxtəlif ictimai- iqtisadi proseslər, o cümlədən urbanizasiya, texnikanın inkişafı, otlaq sahələrinin azalması, müharibələr və onlarla bağlı kataklizmlər atçılıq mədəniyyətinin inkişafında və atüstü oyunların geniş vüsət almasında çətinliklər yaratmışdır. İctimai birlik olaraq ARAF bu

oyunların daha yüksək səviyyədə keçirilməsi və onun daha geniş areallarda oynanılması üçün əsaslı tədbirlər həyata keçirir.

Dünya xalqlarına məxsus mədəni irslərin qorunması istiqamətində YUNESKO-nun fəaliyyətini alqışlayır və Sizin rəhbərliyinizlə təşkilatın bu sahədə həyata keçirdiyi tədbirlərin miqyasının daha da genişlənəcəyinə inamımız böyükdür. Bildiyiniz kimi, Azərbaycan tərəfindən “Çövkən” oyununun YUNESKO-nun Təxirəsalınmaz Qorunmağa Ehtiyac Duyulan Qeyri-Maddi Mədəni İrs Siyahısına salınması üçün təqdim edilmişdir.

Hesab edirik ki, bu atüstü milli oyunun YUNESKO-ya təqdim edilməsi və bununla bağlı təşkilat tərəfindən müsbət qərar veriləcəyi təqdirdə bu sahədə çalışan bütün peşə sahiblərinin, bu irsi gənc nəslə öyrədən, onu təbliğ edən yüzlərlə şəxsin yaradıcılıq potensialına, ümumilikdə isə onların yaşam tərzinə olduqca müsbət təsir edəcəkdir. Nəticədə bu sferanı özləri üçün həyat tərzi kimi qəbul etmiş at yetişdiricilərinin və digər maraqlı insanların – məşqçilərin, idmançıların yaradıcılıq imkanları artacaqdır.

Atçılıq mədəniyyəti və “Çövkən” atüstü milli oyunu ümumxalq atçılıq mədəniyyətinə, nəticədə isə ümumi bəşəri mədəniyyətə, onun zənginləşməsinə və inkişaf etdirilməsinə xidmət göstərir. Azərbaycanın “Çövkən” milli atüstü oyununun YUNESKO-nun Təxirəsalınmaz Qorunmaya Ehtiyac Duyulan Qeyri-Maddi Mədəni İrs Siyahısına salınması istər milli, istərsə də beynəlxalq səviyyədə bu oyun növünün məsuliyyətlə qorunub saxlanılmasına, onun yüksək səviyyədə inkişafına, daha da geniş şəkildə təbliğinə xidmət edəcəkdir.

Qeyd olunanları nəzərə alaraq ARAF “Çövkən” milli atüstü oyununun YUNESKO-nun Təxirəsalınmaz Qorunmağa Ehtiyac Duyulan Qeyri-Maddi Mədəni İrs Siyahısına təqdim edilməsini alqışlayır və YUNESKO tərəfindən bu təklifin dəstəklənməsini xahiş edir.

**İmzalar:**

**Azərbaycan Respublikası Atçılıq Federasiyasının**

**Baş Katibi** **B.Nəbiyev**

**Nümayəndələr:**

1. **X.Rəcəbli**
2. **Y.Musayev**

3. **S.Akqubayeva**
4. **R.İbrahimov**
5. **S.Kuznetsova**
6. **D.Əhmədova**
7. **G.Əliyeva**
8. **E.Ənsərov**
9. **N.Orucov**
10. **Ə.Qazıyev**
11. **F.Abdulləzov**
12. **N.Azayev**
13. **S.Tağıyev**
14. **A.Balahüseynov**
15. **R.İbrahimov**
16. **Z.Tahirov**
17. **F.İsmayılov**
18. **E.Məmmədov**
19. **S.Azayev**
20. **Ə.Qasımov**
21. **V.Musayev**

Reçu CLT / CIH / ITH
Le 19 MARS 2013
N° 0184

Unofficial translation

Baku, 01 march 2013

**ADDRESS**

of the Chovqan players of the Karabakh Horses' Amateurs Association

to the Director General of UNESCO H.E. Mrs. Irina BOKOVA

regarding the inscription of Azerbaijan national horse riding game Chovqan into the UNESCO's List of Intangible Cultural Heritage in Need of Urgent Safeguarding

Your Excellency,
Dear Director General,

Let us first of all welcome the activities of UNESCO on the way of the safeguarding of intangible cultural heritage and express our confidence that the level of organization's relative activities under your leadership will be further enlarged and strengthened. As you already aware, the file of Chovqan traditional game, one of the most ancient and prominent element of Azerbaijan's intangible heritage, was presented for the inscription to the List of Intangible Cultural Heritage in Need of Urgent Safeguarding. Azerbaijan is known as the country where the culture of the horse riding has a long history. The horse riding and various games related to them were the part of the everyday life of local people. Several horse riding games (such as Chovqan, papakh game, qiza chat, yayliq, atustu gulesh, baharbend) represent a part of living heritage of Azerbaijan people. Chovqan has developed in parallel with the Karabakh horse riding culture. Traditionally, it was held at various celebrations and festivities at local level.

Chovqan game influenced the Karabakh horse riding culture and the latter, in its turn, influenced the development of the Chovqan game. Historically, Chovqan game's teams existed in the 3 big regions of Azerbaijan: Karabakh, Ganja-Gazakh and North-West region. At present the game is still traditionally practices in 16 regions, though the practice is rapidly diminishing due to many reasons and competitions are very rare.

Presentation of the file of this traditional game to UNESCO and the favorable decision concerning this file will have a great impact on all the persons practicing Chovqan and help them transmit this heritage to young generation. Also, the high value granted to this kind of national horse riding game on Karabakh horses will be resulted in more responsible approach, care and attention of the concerned local organizations to Chovqan.

Unofficial translation

The national horse riding game Chovqan serves for development and enrichment of the horse riding culture as well as the culture of world humanity. Inscription of this traditional game into the UNESCO's List of Intangible Cultural Heritage in Need of Urgent Safeguarding will boost interest and attention to this game and will be the main tool for the exchange of best practices, cooperation and promotion of the dialogue among societies, communities and individuals. The inscription of Chovqan will serve to proper safeguarding, further development and wider promotion of this game on both local and national levels.

In this context, Chovqan players of the Karabakh Horses' Amateurs Association welcome the submission of Chovqan horse-riding game for the inscription into the UNESCO's List of Intangible Cultural Heritage in Need of Urgent Safeguarding and kindly ask to support this proposal.

Signatures:

Deputy Chairman: Kh.Rajabli

Members of the Association:

1. Natiq Orucov
2. Rashad Samadov
3. Shamseddin Atayev
4. Alovsat Rajabli
5. Tamerlan Mehdizadeh
6. Ramil Nadirov
7. Rustaem Mirzayev
8. Samir Aslanov
9. Leyla Nagiyeva
10. Nuraddin Atayev
11. Aydin Mammadov
12. Ramin Mansurov
13. Mushviq Mahmudov
14. Elvin Islamov
15. Elnur Huseynov
16. Khayal Abdurahmanov
17. Agasamad Gambarov
18. Mahir Abdurahmanov

Reçu CLT / CIH
Le 19 MARS 2013
N° 0117

# QARABAĞ CİNS ATLARI HƏVƏSKARLARI İCTİMAİ BİRLİYİ

Az 1106, Bakı şəh., Azadlıq Prospekti, 144 A
Elektron poçt: office@gunayequestrian.com
Internet səh: www.gunayequestrian.com
Tel: (+99412) 499-86-22
Fax: (+99412) 499-86-24
Mob: (+994 50) 225 93 91

*Bakı şəhəri, 01 mart 2013-cü il*

**Azərbaycanın "Çövkən" milli atüstü oyununun YUNESKO-nun Təxirəsalınmaz Qorunmaya Ehtiyac Duyulan Qeyri-Maddi Mədəni İrs Siyahısına təqdim edilməsinə dair**

**Qarabağ Cins Atları Həvəskarları İctimai Birliyi üzvlərinin**

**YUNESKO-nun baş direktoru xanım İrina Bokovaya**

**MÜRACİƏTİ**

**Hörmətli Baş direktor,**

YUNESKO-nun dünya mədəni irsinin qorunması istiqamətində fəaliyyətini alqışlayır və Sizin rəhbərliyinizlə təşkilatın bununla bağlı həyata keçirdiyi tədbirlərin miqyasının daha da genişlənəcəyinə inanırıq. Bildiyiniz kimi, Azərbaycan xalqının qeyri-maddi mədəni irsinin ən qədim və gözəl nümunələrindən olan çövkən oyunu YUNESKO-nun Təxirəsalınmaz Qorunmaya Ehtiyac Duyulan Qeyri-Maddi Mədəni İrs Siyahısına salınması üçün təqdim edilmişdir. Məlumdur ki, Azərbaycan dünyada atçılıq mədəniyyətinin təşəkkül tapdığı ölkələrdəndir. Mədəni əkinçilik və maldarlıq ilə məşğul olan əhali atüstü milli oyunları da özləri üçün həyat tərzi kimi qəbul etmişlər. Azərbaycanın yerli atları ilk növbədə Qarabağ atı üzərində oynanılan bu xalq oyunlarından çövkən aparıcı yer tutmaqla, papax oyunu, qıza çat, yaylıq, atüstü güləş, baharbənd və digərləri geniş yayılmış Qarabağ atçılıq mədəniyyəti ilə paralel inkişaf etmişdir. Tarixən el şənlikləri, xüsusilə "Novruz" bayramı, atüstü oyunlarsız keçirilməzdi.

Tarixən Azərbaycanın 3 bölgəsində: Qarabağ, Gəncə-Qazax və Şimali-Qərb bölgəsində atüstü milli oyunlar, o cümlədən Çövkən üzrə məktəblər və komandalar mövcud olmuşdur. Hazırda 16 rayonda bu oyunların keçirilməsi üzrə ənənələr daha yaxşı qorunub saxlanmışdır. Çövkən oyunu Qarabağ atçılığı mədəniyyətinə, Qarabağ atçılıq mədəniyyəti isə bu oyunun inkişafına təsir etmiş, əslində bu tandem Azərbaycanın, Qafqaz xalqlarının və sonradan bir çox dünya xalqlarının atçılıq mədəniyyətlərinə sirayət etmiş, əsrlərdən bəri nəsildən-nəslə ötürülərək bu günümüzə gəlib çatmışdır.

Bu atüstü milli oyunun YUNESKO-ya təqdim edilməsi və bununla bağlı təşkilat tərəfindən müsbət qərar veriləcəyi təqdirdə bu sahədə çalışan bütün peşə sahiblərinin, bu irsi gənc nəslə öyrədən, onu təbliğ edən onlarla şəxsin yaradıcılıq potensialına, ümumilikdə isə onların yaşam tərzinə olduqca müsbət təsir edəcəkdir. Belə ki, beynəlxalq ali qurum tərəfindən Qarabağ atı üzərində oynanılan bu atüstü milli oyun növünə verilmiş

yüksək qiymət, bu sahəyə rəhbərlik edən yerli aidiyyəti təşkilatların bu sahəyə daha da məsuliyyətli yanaşmasına, qayğı və diqqətin artmasına səbəb olacaqdır. Bu isə nəticədə bu sferanı özləri üçün həyat tərzi kimi qəbul etmiş at yetişdiricilərinin və bütün problemlərində maraqlı olan insanların – at yetişdiricilərinin, məşqçilərin, idmançıların, eləcə də, bu sahəyə marağı olan şəxslərin yaradıcılıq imkanlarını artıracaqdır.

Atçılıq mədəniyyəti və çövkən atüstü milli oyunu ümumxalq atçılıq mədəniyyətinə, nəticədə isə ümumi bəşəri mədəniyyətə, onun zənginləşməsinə və inkişaf etdirilməsinə xidmət göstərir. Bu milli oyunun YUNESKO-nun Təxirəsalınmaz Qorunmaya Ehtiyac Duyulan Qeyri-Maddi Mədəni İrs Siyahısına salınması ilk növbədə bu oyuna maraq və diqqəti artırmaqla yanaşı cəmiyyətlər, qruplar və fərdlər arasındakı təcrübə mübadiləsinə, iş birliyinə və ümumilikdə isə dialoqun inkişafına və təkmilləşməsinə əsaslı bir vasitə olacaqdır. Azərbaycanın çövkən milli atüstü oyununun YUNESKO-nun Təxirəsalınmaz Qorunmaya Ehtiyac Duyulan Qeyri-Maddi Mədəni İrs Siyahısına salınması istər milli, istərsə də beynəlxalq səviyyədə bu oyun növünün məsuliyyətlə qorunub saxlanılmasına, onun yüksək səviyyədə inkişafına, daha da geniş şəkildə təbliğinə xidmət edəcəkdir.

Bu mənada Qarabağ Cins Atları Həvəskarları İctimai Birliyi çövkən milli atüstü oyununun YUNESKO-nun Təxirəsalınmaz Qorunmaya Ehtiyac Duyulan Qeyri-Maddi Mədəni İrs Siyahısına təqdim edilməsini alqışlayır və YUNESKO tərəfindən bu təklifin dəstəklənməsini xahiş edir.

**İmzalar:**

**Birliyin sədr müavini:** **X.Rəcəbli**

**Birliyin üzvləri:**

1. **Natiq Orucov**
2. **Rəşad Səmədov**
3. **Şəmsəddin Atayev**
4. **Əlövsət Rəcəbli**
5. **Tamerlan Mehdizadə**
6. **Ramil Nadirov**
7. **Rüstaəm Mirzəyev**
8. **Samir Aslanov**
9. **Leyla Naqiyeva**
10. **Nurəddin Atayev**
11. **Aydın Məmmədov**
12. **Ramin Mansırov**
13. **Müşviq Mahmudov**
14. **Elvin İslamov**
15. **Elnur Hüseynov**
16. **Xəyal Abdurəhmanov**
17. **Ağasəməd Qəmbərov**
18. **Mahir Abdurəhmanov**

Reçu CLT / CIH / ITH
Le 19 MARS 2013
N° 0187

**The address to the Director-General of UNESCO Ms. Irina Bokova**

**of the representatives of Azerbaijan Equestrian Federation on inclusion of "Chovqan", traditional horse riding game, to the UNESCO List of Intangible Cultural Heritage in Need of Urgent Safeguarding**

**Dear Director-General,**

Azerbaijan is one of the countries where horse-breeding has been popular since the ancient times. The alluring nature of the region and the love towards horses which were the symbol of valor and good reputation gave a birth to breeding worldwide famous Karabakh horses and contributed to the evolution of national horse-riding games.

Chovqan, the national horse-riding game has been popular throughout west and north-west regions and particularly in Karabakh. Chovqan has been preserved and passed on from generation to generation since the Middle Ages.

Chovqan which was played on Karabakh horses particularly has been developed together with other national games such as "Papag", "Yaylig", "Atustu gulesh", "Baharband" and others. Numerous Chovqan schools and teams existed during different times. But at the later stages of history different socio-economic processes, urbanization, development of mechanized labour, reduction of grazing areas and shortage of Karabakh horses caused difficulties to the frequency of organization of the traditional game. As an NGO uniting Chovqan players, Azerbaijan Equestrian Federation is doing its best to help safeguard the traditional game and pass it to the next generation.

We welcome the UNESCO's activities in safeguarding of cultural heritage and believe that under your patronage this organization will take necessary measures to keep this heritage alive.

As you know, Chovqan the national horse-riding game has been submitted by our organization together with the Chovqan players of Karabakh horses' amateurs union, for inclusion to the UNESCO List of Intangible Cultural Heritage in Need of Urgent Safeguarding. We believe that the positive decision on inclusion of this traditional horse-riding game will have a great impact on the traditional players, who constantly transmit this heritage to young generation. Above all, this will positively affect the way of life of concerned horse riders and increase possibilities of young people to use and further transmit this knowledge.

"Chovqan" as a part of the national horse-riding culture is an integral part of the heritage of the entire humanity. Its inclusion to the UNESCO List of Intangible Cultural Heritage in Need of Urgent Safeguarding will help to safeguard, develop and promote the game at many levels.

Taking into consideration all above mentioned, Azerbaijan Equestrian Federation gives its full consent to the submission of "Chovqan", Azerbaijan national horse-riding game to

the UNESCO List of Intangible Cultural Heritage in Need of Urgent Safeguarding and requests all the stakeholders of UNESCO to support this submission.

**Signatures:**

**Secretary General of the Azerbaijan Equestrian Federation**

**B.Nabiyev**

**Representatives:**

1. X.Rajabli
2. Y.Musayev
3. S.Akqubayeva
4. R.Ibrahimov
5. S.Kuznetsova
6. D.Ahmadova
7. G.Aliyeva
8. E.Ansarov
9. N.Orucov
10. A.Qaziyev
11. F.Abdullazov
12. N.Azayev
13. S.Taghiyev
14. A.Balahuseynov
15. R.Ibrahimov
16. Z.Tahirov
17. F.Ismayilov
18. E.Mammadov
19. S.Azayev
20. A.Qasimov
21. V.Musayev